Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

# Qanunun aliliyi insan hüquq və azadlıqlarının təminatıdır

**Yeni müstəqillik tarixində Azərbaycan hüquqi dövlət quruculuğu, demokratik inkişafla bağlı həqiqətən böyük bir məsafə qət etməyi bacarıb. Bu fonda ölkəmizdə dövlətlə şəxsiyyət, vətəndaşlar arasında münasibətlər köklü şəkildə dəyişib.**



Hətta qısa zaman kəsiyində baş verən dəyişiklikləri əsrlərlə müqayisə etmək olar.

**Azərbaycan insan hüquqları sahəsində beynəlxalq öhdəliklərini uğurla icra edir**

Bu gün ölkəmizdə hər bir vətəndaşın mənafeyinin, hüquq və azadlıqlarının təmin edilməsi Azərbaycanda aparılan demokratik islahatların əsas məqsədinə çevrilib. Ölkə hakimiyyətinin prosesə yanaşması bundan ibarətdir ki, dövlət quruculuğu, cəmiyyətin demokratik yeniləşməsi, iqtisadiyyatın liberallaşdırılması yekun nəticədə vətəndaşa xidmət etməlidir.

Demək olar ki, son 27 ildə bu istiqamətdə islahatların aparılması üçün möhkəm əsas kimi insan hüquqları sahəsində geniş qanunvericilik aktları qəbul edilib. İnsan hüquq və azadlıqları sahəsində beynəlxalq standartların tətbiqinə böyük diqqət yetirilir. Ölkəmiz insan hüquqlarına dair 70-dən çox beynəlxalq sənədə, o cümlədən BMT-nin bu xüsusda altı əsas beynəlxalq sənədini ratifikasiya edib. Beləliklə, Azərbaycan insan hüquq və azadlıqlarına riayət olunmasına, müdafiəsinə dəstək vermək üçün lazımi təşkilati-hüquqi şəraitin, təminatların yaradılması üzrə öhdəliklər götürüb, onları uğurla icra edir. Burada qeyd edək ki, Azərbaycan Konstitusiyasının 12-ci maddəsində müəyyən edilib ki, insan hüquq və azadlıqlarının, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Bu məqsədə nail olmaq üçün Azərbaycanda qəbul edilən qanunların ilk növbədə ölkə Konstitusiyasında və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının təmin olunmasına yönəldilməsi zəruridir. Məhz bu zaman ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələr rəhbər tutulur, bir çox qanun layihələri onların hazırlanması prosesi zamanı insan hüquqları sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatların ekspertizasına təqdim olunur, onların rəyi nəzərə alınmaqla qəbul edilir. Bütün bunların nəticəsi olaraq, ötən dövr ərzində ölkəmizdə insan hüquq və azadlıqları sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər hər şeydən əvvəl Azərbaycanın hərtərəfli inkişafı və gələcək perspektivləri üçün mühüm zəmin yaradıb. İnsan varlığının bünövrəsini təşkil edən fərdi azadlıqların, şəxsiyyətin özünüifadə, yaradıcılıq və təşəbbüskarlıq qabiliyyətlərinin inkişafına təkan verilməsi dövlətin ali məqsədi kimi çıxış edir. Bu mənada vətəndaşların qanuni hüquq və mənafelərinin müdafiəsi məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində mühüm şərtlərdən biridir. Bu sahədə Mülki, Cinayət, Mülki Prosessual, Cinayət-Prosessual, bir sıra qanunlarla bağlı mütərəqqi addımlar atılıb. Ötən müddət ərzində ölkəmizdə məhkəmə hakimiyyətinin mərhələli şəkildə gücləndirilməsi, müstəqilliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinin müstəqil dövlət institutuna çevrilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilib. Bu sahədə aparılan islahatlar məhkəmə icraatının bütün mərhələlərində rəqabətin təmin edilməsinə, o cümlədən ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsinə xidmət edir.

Məhkəmənin nüfuzunun daha da artırılmasına, hakimlərin seçilməsi və yerləşdirilməsinin müasir demokratik tələblərə cavab verən səmərəli sisteminin yaradılması həyata keçirilib. Bunlar cəmiyyətdə qanunun aliliyinin təmin edilməsinə, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinin səmərəli sisteminin formalaşdırılmasına yönəlib.

**Qanunun aliliyi müasir dövlətçiliyin təməl prinsiplərindən biridir**

Bu gün də qanunun aliliyi Azərbaycanda müasir dövlətçiliyin təməl prinsiplərindən biridir. O, cəmiyyətin və dövlətin həyatının ən mühüm məsələlərinə dair parlament tərəfindən qəbul edilən normativ hüquqi aktlar kimi qəbul edilərək icraya yönləndirilir.

Azərbaycanda qanunun aliliyi prinsipi rəsmi şəkildə tanınır və dövlətin fəaliyyətində birbaşa təcəssüm olunur. Ölkəmizdə vətəndaş cəmiyyətinin çoxşaxəli inkişafı, ictimai həyatın daha da demokratikləşməsi bunun faktiki təzahürüdür. Demokratik inkişaf yolunu seçən dövlətlərdə olduğu kimi, Azərbaycanda plüralizm və tolerant münasibətlərin daha da inkişafı cəmiyyətin hər bir üzvünün öz hüquq və azadlıqlarından maksimum istifadə üçün unikal imkanlar yaradıb. Digər tərəfdən ölkəmizdə siyasi və iqtisadi islahatlar paralel olaraq aparılmaqdadır. İqtisadi suverenlik siyasi müstəqilliyi şərtləndirən mühüm amildir. Bu mənada iqtisadi müstəqilliyin daha da möhkəmlənməsi istiqamətində atılan addımlar təqdirəlayiq haldır. Bu, nəticə etibarı ilə Azərbaycanda qanunçuluğun daha da möhkəmlənməsinə ciddi təkan verir. Ölkəmizdə bütün mülkiyyət formalarının hüquq bərabərliyi və hüquqi müdafiəsi, sahibkarlıq fəaliyyətinin sərbəstliyi, tələb və təklifin bazar münasibətləri, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi iqtisadi müstəqilliyi daha da gücləndirən faktorlar sırasında yer alır.

Sosial təminatların yerinə yetirilməsi sistemi də ölkəmizdə daim təkmilləşdirilir. Peşənin sərbəst seçilməsi əsasında əhalinin məşğulluğu, işsizlikdən müdafiə sistemi də buna xidmət edir. Bütün bunlar göstərir ki, Azərbaycanda hüquqi dövlət formalaşıb və uğurla inkişaf etməkdədir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**